# Dünyada qalacaq yalnız yaradan...




Keçmişi unutmamaq, ötənləri, itənləri soraqlamaq, axtarmaq hər bir kəsə başucalığı, şərəf gətirir. Azərbaycan xalqı yüz illər boyu unutqanlığın əzabını, məşəqqətlərini yaşamış, cənnət kimi dağlarını, düzlərini, göllərini, ormanlarını itirmiş, İsaq-Musaq quşları kimi itiyini axtara-axtara, soraqlaya-soraqlaya qalmışdır. Qəribədir, itirilən təkcə qədim yurd yerlərimiz deyil, həm də sirli, sehrli, möcüzəli musiqi alətlərimiz—qolça qopuzumuz, cəngimiz, barbətimiz, çəqanəmiz, çoğurumuz, tənburumuz, sənturumuz, rübabımız, rudumuz, neyimiz, nüshəmiz olmuşdur.

Amma qərinələr, əsrlər keçdikdən sonra bir sehrli əlin gücü, qüdrəti, möcüzəsilə bu ilahi səslər yenidən öz doğma yurduna, yuvasına qayıtmışdır.

Filologiya üzrə fəlsəfə doktoru, Həsən bəy Zərdabi mükafatı laureatı, yazıçı-publisist Şövkət Hüseynovanın təzəcə çapdan çıxmış "Qədim musiqi alətlərinin tədqiqatçısı" kitabında bu möcüzəli qədim musiqi alətlərinə ikinci həyat verən Azərbaycan Respublikasının Xalq artisti, sənətşünaslıq elmləri doktoru, professor Məcnun Kərimovun zəngin həyat və yaradıcılığından söhbət açılır.

1945-ci ildə Zəngəzur mahalının Şəki kəndində doğulan, Ağdam musiqi məktəbində təhsil alan, Zəngilan rayon musiqi məktəbində direktor işləyən Məcnun Kərimov 1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Bakı Musiqi Akademiyasında "Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi" elmi laboratoriyasını yaradan Məcnun müəllim 11 unudulmuş qədim musiqi alətlərini bərpa etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1996-cı ildə Məcnun Kərimovun yaradıcısı olduğu Qədim Musiqi Alətləri Ansamblına dövlət statusu verilmişdir.

Təkcə Azərbaycanda deyil, Avropa və bir çox Şərq ölkələrində tanınan ansamblın çıxışları böyük əks-səda doğurmuşdur.

XIV əsr musiqisini, xalq və bəstəkar mahnılarını böyük ustalıqla ifa edən ansambl bir çox müsabiqələrin qalibi olmuşdur.

YUNESKO səviyyəsində tanınan, yüksək qiymət verilən ansamblın böyük uğurları əslində öz işinin, sənətinin məcnunu olan professor Məcnun Kərimovun böyük qələbəsi idi.

Kitabda Məcnun Kərimovla birgə çalışan, onu yaxından tanıyan qabaqcıl elm, mədəniyyət və incəsənət xadimlərinin bu böyük insanla bağlı fikirlərinə, xatirələrinə də geniş yer verilmişdir.

*Azərbaycan Bəstəkarlar İttifaqının sədri, respublikanın Xalq artisti Firəngiz Əlizadə:* "O, Qədim Musiqi Alətləri Dövlət Ansamblının yaradıcısı və bədii rəhbəri idi. Bu ansamblın simasında o, öz nəzəri axtarışlarını təcrübədə həyata keçirmiş və bununla da Azərbaycan mədəniyyətini və tarixini özünəməxsus surətdə təmsil edən unikal bir musiqi kollektivi yaratmışdır".

*Yaponiyalı alim professor Noriko Rakano:* "Hörmətli Məcnun müəllim! Siz möcüzə yaratmısınız. Əgər əyani surətdə işinizi göstərməsəydiniz, sizə heç kəs inanmazdı. Biz hətta özümüz də təsəvvür edə bilməzdik ki, Azərbaycan kimi balaca və hələ az tanınan bir ölkə bu cür zəngin musiqi mədəniyyətinə malikdir".

*Akademik Vasim Məmmədəliyev:* "Məcnun Kərimovun bədii rəhbəri olduğu ansambl orta əsrlərdə işlənmiş 60-dan artıq musiqi alətindən 15-nin təşkil və bərpasını başa vurmuşdur. Professor illər uzunu çalışaraq, elmi əsas kimi orta əsr musiqisini, Marağayinin ilk dəfə not sistemini ərsəyə gətirmiş, Səfiəddin Urməvinin yaradıcılığına, alətlərin xarici görünüşlərinin yaradılmasında isə orta əsr miniatür rəsmlərinə müraciət etmişdir".

*Telejurnalist Telli Pənahqızı:* "Dünyada qalacaq yalnız yaradan... bu misranın Məcnun müəllimə birbaşa aidiyyəti var! O, bütün həyatını sevdiyi işə həsr etdi. Yaratdı, yaşatdı və özü bu fani dünyadan karvanını çəkib getsə də, bu xalqa, bu Vətənə qiymətli bir xəzinə, dəyərli bir varidat qoyub getdi. Bircə arzum var: bu xəzinənin açarını daşıyan kəs ən azı elə Məcnun müəllim kimi gördüyü işin sevdalısı, məcnunu olsun..."

Dünyanın neçə-neçə ölkəsində qastrol səfərlərində olan, mədəniyyətlərarası dialoqun qurulmasında əvəzsiz xidmətlər göstərən professor Məcnun Kərimovu ən böyük mədəniyyət elçisi də adlandırırdılar.

Sağ olsaydı, Azərbaycan Respublikasının Xalq artisti, sənətşünaslıq elmləri doktoru, professor Məcnun Kərimovun 70 yaşı tamam olacaqdı. Bu gün onun bərpa etdiyi, təzədən xalqımıza qaytardığı qədim musiqi alətləri olan qopuzda, neydə, rübabda, cəngdə, barbətdə, çəqanədə, çoğurda, tənburda, rudda, santurda, nüshədə səslənən ecazkar nəğmələr bu gözəl insanın xatirəsinə ən böyük hörmət və ehtiramdır.

Qədim musiqi alətlərinin tədqiqatçısı, professor Məcnun Kərimova həsr olunmuş, müxtəlif illərdə ayrı-ayrı qəzet və jurnallarda, dərgilərdə çap olunmuş yazılardan ibarət illüstrasiyalar, unudulmaz görüşlərlə bağlı şəkillər kitaba bir gözəllik, təravət gətirmişdir.

Bütövlükdə "Qədim musiqi alətlərinin tədqiqatçısı" kitabı musiqisevərlərə, öz xalqının keçmişinə biganə qalmayanlara, professor Məcnun Kərimovu xoş xatirələrlə yad edənlərə ən gözəl hədiyyədir.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**